# ƏMƏKDAŞLIQ SAZİŞLƏRİNƏ DAİR GÖRÜŞÜN BİRGƏ BƏYANNAMƏSİ

**24 MAY 2006/ANTALİYA**

## 1. Əməkdaşlığın miqyası və məqsədi

24 May 2006-cı il tarixində keçirilmiş Əməkdaşliq Sazişləri Görüşündə müəyyənləşdirildiyi kimi region daxilində həyata keçiriləcək əməkdaşlıq sahələri aşağıdakılardan ibarət olmalıdir : Təşkilati İnkişaf, İmkan Qurma ( Yerli şöbələrin İnkişafı, Maliyyə vəsairlərinin galdırılması (FandReyzinq) və sairə), Fəlakət zamanı idarəetmə, Gənclər və Könüllülər Xidmətləri ( Milli Cəmiyyətlərin yayım fəaliyyətlərinə kömək) və Səhiyyə Xidmətləri ( İlk Yardım – HIV/AIDS Treyninqləri – Vərəm). Türkiyə Qızıl Aypara Cəmiyyəti bu sahələrdə çox təcrübəlidir. Tərəflər birgə fəaliyyət göstərmək məqsədilə öz imkanlarını bir-biriləri ilə paylaşmaq və təcrübə mübadiləsi etmək niyyətindədirlər. Layihələrin vəzifəsi icma əsaslı proqramlar vasitəsilə uzun müddətli davamlı nəticələrə nail olmaqdır.

## 2. **Metodologiya və icra olunmalı mərhələlər**

Anlaşılma Memorandumunun imzalanmasının ardınca Layihə Qrupu Anlaşılma Memorandumuna qoşulmuş Milli Cəmiyyətlərə səfər etməlidir. Məqsəd layihənin işlənilib hazırlanmasına imkan verməli olan tələb olunan məsələləri müəyyən etmək və yuxarıda qeyd olunan sektorlara (ehtiyacların qiymətləndirilməsi) dair ev sahibliyi edən Milli Camiyyətlə birgə layihələrin çərçivəsini göstərməkdir. Tərəflər layihə çərçivəsini detallaşdırmalı və danışıqlara açıq olacaq “Qaralama Layihəsini” hazırlamalıdırlar. Qaralama Layihəsi Anlaşılma Memorandumunu imzalamış bütün Milli Cəmiyyətlərin iştirakı ilə Türkiyədə keçirilməli olan görüşdə yekun formaya salınacaq. Beləliklə də proqramların tamlığına nail olunmalıdir.

## 3. Layihələrin təsdiqi

Layihələr layihələrə imza atmış Milli Cəmiyyətlərin prosedurаlarına uyğun olaraq 24 may 2006-cı il tarixində Türkiyənin Antaliya şəhərində keçirilmiş Əməkdaşlıq Sazişləri Görüşündə imzalanmış Anlaşılma Memorandumuna olan əlavə protokollar kimi təsdiq olunmalıdır.

## 4. Layihələrin İcrası

Tərəflərdən xahiş olunur ki, 2006-cı ilin İyun ayına Fokal Person təyin etsinlər. Fokal Personun köməkliyi ilə yaradılacaq Layihə Qrupları 2006-cı ilin İyul ayında ehtiyacların ilkin qiymətləndirilməsinə başlamalıdırlar.

Hər iki tərəfin yaratdığı Layihə qrupları Layihənin icrasına cavabdeh olmalıdırlar. Türkıyə Qızıl Aypara Cəmiyyətinin və müvafiq Milli Cəmiyyətin işçi heyəti tərəfindən yaradılmalı olan "Monitorinq-Qiymətələndirmə və Hesabatvermə Komandası" hər altı aydan bir layihının icra mərhələlərini monitorinq etməli və nəzərdən keçirməli, habelə nəticələr barədə tərəflərə məlumat verməlidir.

İllik monitorinq – qiymətləndirmənin yekun hesabatları təqdim olunacaq " Layihə Koordinasiya Görüşü" layihənin başlamasının ardınca gələn birinci illin sonunda Türkiyədə keçiriləcəkdir. Beynəlxalq Federasiyanın nümayəndələri də həmin görüşə dəvət olunmaıdırlar. Həmin görüşdə ötən ilin qiymətləndirilməsi aparılacaq və layihənin gələcək icrasına dair qərarlar çıxarılmalıdır.

Tekin Küçükali
Preizident
Türkiyə Qızıl Aypara Cəmiyyəti

Gafar Askerzadeh
Vitse President
Azərbaycan Qızıl Aypara Cəmiyyəti

Cənab Skanderbek Osmanov
Sədr, Qırğızistan Qızıl Aypara Cəmiyyəti

Qiorqi Qiqiberiya
Baş Katib
Gürcüstan Qizil Aypara Cəmiyyəti

Doktor Erkebek Arqimbayev
Prezident
Kazaxstan Qızıl Aypara Cəmiyyəti

Taner Erqinel
Prezident
Şimali Kipr Türkiyə Qızıl Aypara Cəmiyyəti

Doktor Dcura İnomzoda
Prezident
Tacikistan Qızıl Aypara Cəmiyyəti

Zukra Elliyeva
Prezident
Türkmənistan Qızıl Aypara Cəmiyyəti

Mannon Rəhimov
Prezident
Özbəkistan Qızıl Aypara Cəmiyyəti